AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

*Əlyazması hüququnda*

**NİGAR RZA QIZI COŞKUNSU**

# ERKƏN ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANIN MADDİ VƏ MƏNƏVİ MƏDƏNIYYƏTİ

5102.01- Etnoqrafiya və etnologiya

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2017**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "Tarixi etnoqrafiya" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Teymur Əmiraslan oğlu Bünyadov**
*AMEA-nın həqiqi üzvü,*
*tarix üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər**: **Tarix Meyrud oğlu Dostiyev**
*tarix üzrə elmlər doktoru*

**Məhəbbət Tofiq qızı Paşayeva**
*tarix* üzrə elmlər doktoru

**Aparıcı elmi müəssisə:** Azərbaycan Milli Tarix Muzeyi "Etnoqrafiya elmi fondu" şöbəsi

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün (5102.01- Etnoqrafiya və etnologiya) dissertasiyaların müdafiəsini keçirən F/D 01.171 Dissertasiya Şurasının "____"_________2017-cı il tarixli iclasında saat "___"-da keçiriləcəkdir.

**Ünvan:** Az.1143, Bakı şəhəri, H.Cavid prospekti 115.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___" ___________2017-cı ildə göndərilmişdir.

**F/D 01.171**
**Dissertasiya Şurasının**
**elmi katibi:** **Səfər Hüseyn oğlu Aşurov**
***tarix üzrə fəlsəfə doktoru***

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Erkən orta əsrlər bəşəriyyət tarixində mühüm yer tutmaqla yanaşı, bir sıra xarakterik xüsusiyyətləri ilə də seçilir. Məhz tarixin erkən orta əsrlər çağında maddi istehsalda, əhalinin təsərrüfat fəaliyyətinin xüsusiyyətlərində, sosial-siyasi münasibətlərdə, mədəni inkişafda köklü dəyişikliklər baş verir ki, bu da gələcəkdə Avropa və Şərq xalqlarının intibahı üçün əsaslı zəmin yaradır.

Erkən orta əsrlərin başlanğıcında, daha dəqiq desək, III əsrdən etibarən Azərbaycan dövlətləri - Atropatena və Albaniyanın ictimai-iqtisadi həyatında ciddi inkişaf meylləri müşahidə edilir. Təsərrüfat həyatında əkinçiliyin rolu genişlənir, sənətkarlığın ayrı-ayrı sahələri – parça və dulus məmulatı istehsalı, zərgərlik, bədii sənətkarlıq, xalçaçılıq və s. böyük şöhrət qazanır. Azərbaycanın ilk orta əsr abidələrində (Mingəçevir, Qəbələ, Beyləqan və s.) arxeoloji qazıntılar zamanı aşkara çıxarılan əmək alətləri, bəzək və məişət əşyaları da sözügedən dövrün yüksək iqtisadi tərəqqisi haqqında əyani təsəvvür yaradır.

Atropatena və Albaniya dövlətləri regionun siyasi və mədəni həyatında da mühüm rol oyanayırdı. IV əsrdə - I Urnyarın hakimiyyəti dövründə Albaniya əraziləri Böyük Qafqaz sıra dağlarından Araz çayına qədər geniş əraziləri əhatə edirdi.

Sasanilərin hakimiyyətə gəlişi ilə xeyli güclənmiş və geniş işğallara başlamış İran Atropatenanı da tərkibinə qatdı və Atropatenada hakim din olan Zərdüştlüyü bu imperiyanın rəsmi dininə çevirdi. Bundan sonra isə Albaniya uğrunda uzunmüddətli Roma - Sasani və Sasani-Bizans müharibələri başlandı. Albaniya da qismən Sasanilərin hakimiyyəti altına düşdü.

Cavanşirin hakimiyyəti illərində Albaniya yenidən gücləndi. Dərbənd, Şabran, Şirvan, Qəbələ, Şəki, Şəmkir, Gəncə, Bərdə, Beyləqan, Naxçıvan, Təbriz, Qazaka kimi şəhərlər o dövrün ən mühüm siyasi və mədəni mərkəzlərinə çevrilmişdilər. Bu şəhərlər Azərbaycanın Avropa və Şərq dövlətləri (Hindistan, İran, Çin) ilə iqtisadi və ticarət əlaqələrində mühüm yer tuturdular.

Azərbaycan elmində, ədəbiyyatında, dilində və bütövlükdə mədəniyyətində ciddi irəliləyişlər baş verirdi. Əvvəlki dövrlərdə yaradılmış maddi-mənəvi dəyərlər üzərində bərqarar olan həmin mədəniyyət tədricən milli xarakter almağa, milli məzmun və keyfiyyətlər kəsb edərək seçilməyə başlayır.

Çoxşaxəli Albaniya incəsənəti və onun ayrı-ayrı sahələri də erkən orta əsrlərdə özünün yüksək səviyyəsinə çatmışdı. Müasir elm tərəfindən qəti şəkildə sübut olunmuşdur ki, bəzi ədəbiyyatda "sasani mədəniyyəti" adlandırılan qədim mədəniyyətin kökündə əslində Azərbaycan mədəniyyəti dayanırdı. Azərbaycan ədəbiyyatının ilkin nümunələri də məhz ilk orta əsrlərdə yarandı.

IX əsrdən etibarən fars dili bütün Yaxın Şərq xalqları, o cümlədən Azərbaycan xalqı üçün poeziya dili kimi geniş tətbiq olunmağa başlayır. Bu dövrdə yaranan şifahi xalq ədəbiyyatı nümunələri qədim atəşpərəstlik ənənələrini mühafizə etməklə xalqın şikayətlərini, etirazlarını, baş verən gündəlik tarixi hadisələri, eyni zamanda məişət, adət və ayinlərlə bağlı məsələləri əhatə edirdi. Get-gedə ərəb dilini mənimsəyən və ərəb dilində yaranmış elmi, bədii əsərlərlə tanış olan Azərbaycan ziyalıları, hələ VIII əsrdən başlayaraq bu dildə bədii və elmi əsərlər yaratmağa müvəffəq olmuşdular. VII əsrin ortalarından başlanan ərəb işğalları Azərbaycanda islam dininin yayılması ilə müşaiyyət olunurdu. Bu kontekstdə zərdüştlük, xristianlıq və büdpərəstlik dinlərinin sıxışdırılması prosesi gedirdi ki, bu da istər-istəməz ölkənin müxtəlif etnik ünsürlərinin birliyi üçün şərait yaradırdı. Başqa sözlə desək, sasani və ərəb işğallarına qarşı mübarizə azərbaycanlıların daha sıx birləşməsi, onların etnik birliyinin təşəkkülünü sürətləndirirdi. Bu baxımdan, IX əsrdə xalq qəhrəmanı Babəkin başçılığı altında baş vermiş və geniş əraziləri və əhali kütləsini əhatə edən milliazadlıq hərəkatını xüsusilə qeyd etmək lazımdır.

Azərbaycan ərazilərinin ərəb Xilafətinin tərkibinə qatılması bir sıra mənfi nəticələr doğurmaqla bərabər, sosial-siyasi və mədəni həyatda irəliləyişlərə də səbəb oldu. Belə ki, Xilafətin tərkibinə daxil edilmiş digər Şərq xalqları ilə qarşılıqlı siyasi, iqtisadi və mədəni əlaqələr zəminində elmin, ədəbiyyatın, tibbin, musiqinin və incəsənətin müxtəlif sahələrinin inkişafı üçün də yeni şərait və imkanlar yaranmışdı.

Beləliklə, bütün bu proseslər erkən orta əsrlər dövründə Azərbaycan xalqının məişət və mədəniyyətində əsaslı dəyişikliklərə gətirib çıxarmışdı ki, bu da həmin dövrün etnoqrafik problemlərinin müstəqil elmi-tədqiqat mövzusu kimi işlənməsini vacib və aktual etmişdir.

**Tədqiqatın xronoloji çərçivəsi**. Tədqiqatın xronoloji çərçivəsini Azərbaycan tarixinin erkən orta əsrlər dövrü təşkil edir. Erkən orta əsrlər dövrünün sərhədləri ilə bağlı hamı tərəfindən qəbul edilmiş ümumi bir fikir yoxdur. Bir qisim tədqiqatçılar bu dövrün III-IX, bəziləri III-X, bəziləri IV-XI, bəziləri isə IV-XII əsrləri əhatə etdiyini yazırlar. Belə bir fikir

ayrılığına rəğmən, XII əsrin Azərbaycan tarixində intibah dövrü kimi yer tutduğunu və bu dövrdən inkişaf etmiş orta əsrlər dövrünün başlandığını nəzərə alıb, dissertasiya işində III-XI əsrlər Azərbaycan xalqının məişət və mədəniyyət məsələləri araşdırılır.

Bununla belə, qarşıya qoyulmuş problemin xarakterindən asılı olaraq, həmçinin məişət və mədəniyyətin evalyusiyası faktorunu nəzərə alaraq, bir çox hallarda xronoliji çərçivədən kənara çıxılır, əvvəlki və ya sonrakı tarixi dövrlərə də səyahət edilir.

**Tədqiqatın mənbə bazası**. Tədqiqatın mənbə bazasını əsasən arxeoloji ədəbiyyat, dövrə aid yazılı mənbələr və həmçinin dövrü bu və ya digər dərəcədə xarakterizə edən Azərbaycan klassik ədəbiyyat nümunələri təşkil edir. Bundan əlavə, ilk orta əsrlər dövrünü işıqlandıran mənbələr sırasında sasanilər dövrünün kitabələri və epiqrafik abidələri, bu dövrə aid gümüş və mis qablar, sikkələr, möhürlər və digər maddi mədəniyyət nümunələri də mühüm yer tutur.

Erkən orta əsrlərdə toplanıb dövrün tələblərinə uyğun hala salınmış "Avesta", antik dövr müəlliflərindən Heredotun "Tarix", Strabonun "Coğrafiya" və alban tarixçisi Moisey Kalankatuklunun "Albaniya tarixi" əsərləri də Azərbaycanın qədim və ilk orta əsrlər dövrünün ən vacib mənbələri sırasındadır. IX-XII əsrin ərəb müəlliflərindən İbn-Xordadbehin, əl-Yəqubinin, İbn Rustanın, əl-Məsudinin, Əbu-Duləfin, əl-İstəxrinin, ibn-Havqəlin, əl-Müqəddəsinin, əl-Qərnatinin, Yaqut əl-Həməvinin, İbn əl-Əsirin və s. əsərlərində Azərbaycanın erkən orta əsrlər dövrünün siyasi, iqtisadi və ticarət əlaqələrinə, həmçinin məişət və mədəniyyətinin xüsusiyyətlərinə, adət-ənənələrinə dair maraqlı məlumatlar əksini tapmışdır.

Türk dünyasının ən möhtəşəm ədəbi abidələrindən olan "Kitabi-Dədə Qorqud" dastanını isə sözün tam mənasında erkən orta əsrlər dövrü Azərbaycan etnoqrafiyasının güzgüsü hesab etmək olar. Belə ki, mütəxəssislər tərəfindən İslam dininin Azərbaycanda yayılmağa başladığı VII-VIII əsrlərə, bir çox hallarda hətta islamdan əvvəlki dövrlərə aid edilən bu qəhrəmanlıq dastanı xalqımızın etnogenezinin və etnik tarixinin öyrənilməsi üçün çox qiymətli mənbə olmaqla yanaşı, dövrün ailə-məişət (nikah, toy və s.), maddi və mənəvi mədəniyyət (evlər, geyim və bəzəklər, yeməklər və içkilər, xalq təbabəti, dini münasibətlər, musiqi, oyun və əyləncələr və s.), sənətkarlıq (ağacişləmə, metalişləmə, toxuculuq, dulusçuluq və s.) kimi etnoqrafiya elminin çox vacib sahələrinə aid materialları da əhatə edir.

**Mövzunun öyrənilmə dərəcəsi**. Dissertasiya mövzusu xronoloji baxımdan erkən orta əsrlər dövrünü əhatə etdiyindən, problemin araşdırılmasında arxeoloji ədəbiyyatdan geniş istifadə olunmuşdur. Bu sırada ilk növbədə XX əsdə və müstəqillik illərində Azərbaycanın Mingəçevir, Qəbələ, Naxçıvan, Beyləqan, Gəncə, Qazax, Şabran və digər orta əsr şəhər yerlərində aparılmış arxeoloji qazıntıların nəticələrinə həsr edilmiş elmi-tədqiqat əsərlərini və monoqrafiyaları xüsusilə qeyd etmək lazımdır. R.Vahidovun “Mingəçevir III-VIII əsrlərdə”, Q.Əhmədovun “Orta əsr Beyləqan şəhəri” (tarixi-arxeoloji oçerk), A.Orucovun “İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq”, O.Həbibullayevin “Kültəpədə arxeoloji qazıntılar” və “Энеолит и бронза на территории Нахичеванской АССР”, Q.Aslanov, R.Vahidov və Q.İonenin birgə yazdıqları “Древний Мингечаур (эпоха энеолита и бронзы), İ.Nərimanovun “Культура древнейщего земледельческого-скотоводческого населения Азербайджана”, H.Ciddinin “Средневековый город Шемаха IX-XVII веках”, İ.Babayevlə Q.Əhmədovun müəllifləri olduqları “Qəbələ”, Q.Cəbiyevin “Girdman tarixi”, A.Nuriyevin “Ремесло Кавказской Албании (III-VIII вв.)”, R.Göyüşovun “Христианство в Кавказской Албании”, M.Xəlilovun “Albaniyanın xristian abidələri (IV-X əsrlər)” və digər müəlliflərin tədqiqatları araşdırılan dövrün etnoqrafıyası üçün zəngin material verir.

XX əsrin 20-30-cu illərindən etibarən isə Azərbaycan xalqının məişət və mədəniyyəti etnoqrafik baxımdan ardıcıl olaraq öyrənilməyə başlanılmışdır. Bu sırada Q.Qaraqaşlının “Материальная культура азербайджанцев северо-восточной и центральной зон Малого Кавказа”, S.Ağamalıyevanın “Гончарство Азербайджана. Историко-этнографическое исследование”, A.Mustafayevin “Azərbaycanda sənətkarlıq”, “Şirvanın maddi mədəniyyəti”, “Azərbaycanda şərbaflıq sənəti” və “Azərbaycan maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat)”, Ə.Ələkbərovun “Исследования по археологии и этнографии Азербайджана”, T.Bünyadovun “Azərbaycanda maldarlığın inkişafı tarixindən”, “Azərbaycanda əkinçiliyin inkişafı tarixinə dair”, “Qədim Azərbaycanda toxuculuq və keçəçiliyin inkişaf tarixinə dair”, H.Quliyevin “Azərbaycanda toxuculuq sənəti tarixindən (ən qədim zamanlardan XIII əsrə qədər)”, “Ткачество (заметки этнографа)” və “Azərbaycanda toxuculuq sənəti tarixindən (ən qədim zamanlardan XIII əsrə qədər)”, M.Nəsirlinin “Сельские посления и крестьянские жилища Нахичеванской АССР” və “Yaşayış evinin mənşəyinə dair”, F.Vəliyevin “Azərbaycanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat)”, H.Məmmədovun “Muğanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat)”, M.Dadaşzadənin

"Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti", Ə.İzmayılovanın "К истории развития жилищ юго-восточных районов Азербайджана", A.Mehdiyevin "Народное жилище Азербайджана" və s. bu kimi monoqrafiya və məqalələri qeyd etmək olar.

Azərbaycan etnoqrafiyasının öyrənilməsi baxımından 2007-ci ildə akademik Teymur Bünyadovun rəhbərliyi altında işıq üzü görən üç cildlik "Azərbaycan etnoqrafiyası" fundamental tarixi-etnoqrafik monoqrafiyası xüsusi qeyd olunmalıdır. Zəngin mənbə, ədəbiyyat, arxiv və çöl-etnoqrafik materialları əsasında yazılmış bu monoqrafiyada xalqımızın təsərrüfat məişəti, maddi və mənəvi mədəniyyət məsələləri, sənərkarlıq, ailə və ailə-məişət məsələləri və s. geniş təhlilə cəlb olunmuşdur. Çoxcilidlik xronoloji baxımdan əsasən XIX-XX əsrləri əhatə etsə də, burada Azərbaycan xalqının əvvəlki dövrlərə o, cümlədən erkən orta əsrlər dövrünə aid məişət və mədəniyyət problemləri də əksini tapmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işinin əsas məqsədi Azərbaycan xalqının erkən orta əsrlər dövrünün məişət və mədəniyyətinin əsas xüsusiyyətlərini aşkara çıxarmaqdır. Bu məqsədlə aşağıdakı vəzifələrin yerinə yetirilməsinə cəhd göstərilmişdir:

- Erkən orta əsrlər dövrünün tarixi-etnoqrafik səciyyəsini vermək;
- Dövrün Azərbaycan tarixində, məişət və mədəniyyətində yerini müəyyənləşdirmək.
- Maddi mədəniyyətin inkişafını şərtləndirən əsas sosial-iqtisadi, siyasi və ideoloji əsaslarını tədqiq etmək və üzə çıxarmaq;
- Əsas sənətkarlıq sahələrinin inkişaf xüsusiyyətlərini vermək, onların cəmiyyətin iqtisadi, siyasi və təsərrüfat həyatı ilə bağlılıq dərəcəsini qeyd etmək;
- Tədqiq olunan dövrdə Azərbaycan mənəvi mədəniyyətinin - ədəbiyyatın, xalq təbabətinin, musiqinin, oyun və əyləncələrin, o cümlədən dini şəraitin xarakterik xüsusiyyətlərini üzə çıxarmaq, dini sinkretikliyin xalqın həyatında rolunu göstərmək;

**Tədqiqatın metodoloji əsası**. Dissertasiya işinin yazılmasında müasir etnoqrafiya elmində qəbul olunmuş problemə kompleks, sistemli və müqayisəli təhlil yanaşma metodlarından istifadə olunmuşdur. Belə ki, dövrlə bağlı çöl-etnoqrafik materialları toplamağın qeyri-mümkünlüyü səbəbindən, əsas diqqət arxeoloji, tarixi və bədii ədəbiyyatda əksini tapmış materialların kompleks təhlilinə yönəldilmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya işi tarixi, arxeoloji və etnoqrafik ədəbiyyat, erkən orta əsrlər dövrünə aid yazılı və şifahi qaynaqlar

əsasında yazılmışdır. Həmin ədəbiyyat və qaynaqların kompleks tətbiqi əsasında erkən orta əsrlər dövrünün maddi və mənəvi mədəniyyətinə, sənətkarlığın müxtəlif sahələrinin təşəkkülünə və inkişafına yeni prizmadan yanaşılmış, bir sıra yeni fikirlər irəli sürməklə bu dövrün Azərbaycan xalqının mədəniyyət və məişətində yerinin müəyyənləşdirilməsinə cəhd göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya işinin müddəaları Azərbaycanın erkən orta əsrlər dövrünün tədqiqi ilə məşğul olan mütəxəssislər – etnoqraflar, tarixçilər, din, mədəniyyət və incəsənətin müxtəlif sahələrinin tədqiqatçıları, doktorant və dissertantlar üçün faydalı ola bilər. Bundan başqa dissertasiya işində əksini tapan fikir və mülahizələr araşdırılan tarixi dövr üzrə elmi əsərlərin və monoqrafiyaların yazılması üçün də elmi əhəmiyyətə malikdir. Dissertasiya işində əksini tapmış müddəalar tədqiq olunan dövrə aid ali və orta məktəb dərsliklərinə də salına bilər.

**Tədqiqatın aprobasiyası**. Dissertasiya işi AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Tarixi etnoqrafiya" şöbəsində yerinə yetirilmişdir. Problemin əsas elmi nəticələri müəllifin müxtəlif nəşrlərdə çap olunmuş məqalələrində və beynəlxalq konfrans və simpoziumlarda etdiyi çıxışların tezislərində əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın xronoloji çərçivəsi, mənbəşünaslıq bazası, mövzunun öyrənilmə dərəcəsi, elmi yeniliyi, nəzəri-praktiki əhəmiyyəti, aprobasiyası, dissertasiyanın quruluşu haqqında məlumat verilir.

**"Maddi mədəniyyət"** adlanan I fəslin birinci bölməsi ***"Yaşayış məskənləri və evlər"*** adlanır. Bütün tarixi dövrlərdə olduğu kimi, erkən orta əsrlərdə də məskənlər və evlər müxtəlif faktorların təsiri altında dəyişikliyə uğramış, təkmilləşmiş və inkişaf etmişdir.

Bu dövrdə azərbaycanda yaşayış məskənlərinin oba, şenlik, sığırxana, yataq, binə, yurd, düşərgə, qışlaq, dəkkə, dəngə, yaylaq və s. müvəqqəti yaşayış məskənləri, kənd və şəhər kimi daimi yaşayış məskənləri formalarının olduğunu üzə çıxarmışdır. Manna, Atropatena və Albaniya şəhərləri karvan-ticarət yolları üzərində yerləşməklə, şəhər məişət tərzinin bütün göstəricilərinə cavab vermişdir. Bakı, Təbriz, Ərdəbil, Mağara, Şamaxı,

Gəncə, Naxçıvan, Bərdə, Dərbənd, Qəbələ, Beyləqan, Şabran, Şuşa, Şəki və s. şəhərlərimizin formalaşması da məhz bu dövrdə başlamış və erkən orta əsrlərdə demək olar ki başa çatmışdır.

Digər müsəlman Şərqi ölkələrində olduğu kimi Azərbaycanın da orta əsr şəhərləri əsasən üç sosial-iqtisadi topoqrafik hissədən – narınqala (içqala), şəhristan (içəri şəhər) və rabaddan (bayır şəhər) ibarət olmuşdur. Şəhərlərin belə quruluşu feodal cəmiyyətində baş verən sosial-iqtisadi və siyasi proseslərlə bağlı idi. Lakin istər kənd və istərsə də şəhər tipli yaşayış məskənlərinin əsas komponenti heç şübhəsiz ki, ev olmuşdur. Evlər daş dövrü insanlarının primitiv mağaralarından başlamış müasir şəhər evlərinə qədər böyük bir inkişaf yolu keçmişdir.

Azərbaycanın əlverişli və rəngarəng təbii-coğrafi şəraiti, tikinti materialları ilə zənginliyi burada tarixən müxtəlif tipli yaşayış evlərinin yaranmasına və müxtəlif tikinti üsullarının inkişafına şərait yaratmışdır. Təsadüfi deyil ki, ölkəmizin ərazisində ibtidai-icma quruluşundan tutmuş ticarət-sənaye dövrünədək tarixin bütün mərhələlərini əhatə edən yaşayış evi tipləri də qorunub saxlanılmışdır.

Erkən orta əsrlər dövrünün xalq yaşayış evlərindən danışarkən isə İslam faktorunun təsirini də nəzərdən qaçırmaq olmaz. Belə ki, VIII əsrdən etibarən Azərbaycanda ərəb işğalı və İslam dininin yayılmağa başlaması ilə yeni siyasi-ideoloji şərait bərqərar olmuşdur. Məhz bu dövrdən etibarən İslam faktoru maddi və mənəvi mədəniyyətin bütün digər sahələri kimi, yaşayış evlərinə, onların memarlıq-kompozisiya quruluşuna, daxili tərtibatına və ev tikintisi ilə əlaqədar adət-ənənələrə əsaslı təsir göstərmişdir. Azərbaycan memarlığı tarixində İslam memarlığı məktəbinin təşəkkülü, formalaşması və tərəqqisi də məhz ilk orta əsrlərdə başlanmışdır. Belə məlumatlara qismən "Kitabi-Dədə Qorqud" dastanında və bir sıra ərəb müəlliflərinin əsərlərində rast gəlmək mümkündür. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanında qədim oğuz tayfalarına məxsus çadır, alaçıq, ovdan kimi yaşayış evləri ilə bərabər, "ağ ban evlər", mətbəx (mutbax), ocaq kimi vacib istilahlara rast gəlmək olur. Bütün bu məlumatlar, həmçinin arxeoloji qazıntıların nəticələri sözügedən dövrdə Azərbaycanda ev tikintisində memarlıq-planlaşdırma işinin və inşaat texnikasının yüksək səviyyədə olduğunu sübut edir.

Fəslin ***"Geyimlər və bəzəklər"*** adlanan ikinci bölməsində erkən orta əsrlərin geyim və bəzəklərindən bəhs olunur. Maddi mədəniyyətin digər sahələri kimi, geyim və bəzəklər də sosial-iqtisadi həyat şəraiti ilə üzvü surətdə bağlı olub, xalqın milli xüsusiyyətlərini, onun əmək və təsərrüfat

fəaliyyətinin xarakterini, cəmiyyətin ictimai qrupları arasındakı sosial zümrə fərqlərini, başqa xalqlarla tarixi əlaqə və qarşılıqlı təsir məsələlərini, estetik və bədii zövqünü, etnik və sosial mənsubiyyətini müəyyənləşdirməkdə əhəmiyyətli mənbə rolunu oynayır. İbtidai toxuculuq sənəti ilə sıx şəkildə bağlı olan qədim dövr geyimləri və bəzəkləri haqqında məlumat verən əsas mənbə heç şübhəsiz ki, arxeoloji materiallardır. Həmin materialların təhlilindən məlum olur ki, ibtidai icma cəmiyyətindən başlayaraq toxuculuq sənətində yabanı və mədəni lifli bitkilər başlıca xammal rolunu oynamışdır. Erkən orta əsrlər dövründə isə tədqiqatçılar artıq ölkənin bol ipəyindən, gözəl parçalarından və sənətkar dərzilərin tikdikləri qiymətli geyimlərdən söhbət açırlar. IX-XII əsrlər ərəb müəllifləri Gəncə və Bərdənin Azərbaycanın ən böyük ipəkçilik mərkəzləri olduğunu, Bərdədən çoxlu ipək aparıldığını, Bərdənin Fars və Xuzistan vilayətlərini ipəklə tamamilə təmin etdiyini xəbər verirlər.

“Kitabi-Dədə Qorqud” dastanında az qala günümüzə qədər gəlib çatan bir çox geyim və bəzək növlərinin adlarına, onların təyinatına rast gəlmək mümkündür. Burada “kömlək” (köynək), “al məxmuri şalvar”, cübbə, çuxa, kaftan, kəpənək, baş geyimlərindən tac, sarıq, külah, çalma, niqab, börk, sarıq, gecəlik və s. haqqında məlumatlara rast gəlmək mümkündür. Bundan başqa dastanda çırqab, dəri papaqlar, yapuq, tülbənd, dəmir don, qadın baş geyimlərindən yaşmaq, duvaq və çəmbər, qurşaq və kəmər kimi geyim elementlərinin adları çəkilir. Ayaq geyimlərindən isə başmaq, soqman, ədik, cərmuzənin adları qeyd olunur.

Geyimlər kimi bəzəklərin tarixi də çox qədimdir. İlk dövrlərdə insanların təbiət və təbiət hadisələrini dərketmə prosesində yaranan inam və etiqadların (animizm, totemizm, fetişizm və s), rəsmi dinlərin (zərdüştlük, xristianlıq, islam) təsiri altında yaranan, əsasən də qoruyucumagik funksiya daşıyan bəzəklər və bəzək elementləri zaman keçdikcə bədii zövqün və estetik tələbatın ödənilməsi vasitəsinə çevrilmişdir.

Geyim və bəzəklərin formalaşması, inkişafı və təkmilləşməsində İslam dininin, şəriət normalarının təsiri və rolu isə xüsusi qeyd olunmalıdır.

Fəslin üçüncü bölməsi maddi mədəniyyətin mühafizəkar sahələrindən olan ənənəvi ***“Yemək və içkilər”***ə həsr olunmuşdur. Yemək və içkilərin əldə edilməsinin tarixi insan cəmiyyətinin tarixi qədər qədimdir. Yəni insan, özünü və ətraf aləmi dərk etməyə başladığı gündən yaşamaq üçün qida məhsulları əldə etməyə çalışmış, təbiətin hazır nemətlərindən istifadə etməkdən – yığıcılıqdan (mənimsəmə təsərrüfatı) başlayaraq istehsal təsərrüfatının ən müxtəlif mərhələlərini əhatə edən bir mədəniyyəti– mətbəx

mədəniyyətini yaratmışdır. Arxeoloji materiallar və ölkəmizin ayrı-ayrı bölgələrində qeydə alınmış qayaüstü təsvirlər sübut edir ki, hələ ibtidai icma quruluşundan Azərbaycan ərazisində yaşayan əhali ovçuluq, balıqçılıq, əkinçilik, maldarlıq, bağçılıq, bostançılıq və s.-ilə məşğul olmuşlar. Qobustan, Kəlbəcər, Gəmiqaya və Abşeron qayaüstü təsvirləri, Naxçıvan, Qarabağ və Qobustanın bir çox qədim yaşayış yerlərində qeydə alınmış təsərrüfat quyularından və qablardan aşkar edilmiş müxtəlif taxıl növləri qalıqları da qədim Azərbaycanda əkinçiliyin yüksək səviyyədə olduğundan xəbər verir. Bu fakt Strabonun "Coğrafiya", M.Kalankatuklunun "Albaniya tarixi" və ərəb müəlliflərinin əsərlərində, həmçinin "Kitabi-Dədə Qorqud" dastanı kimi tarixi mənbələrlə də təsdiqlənir.

Erkən orta əsrlər dövründə islam dini və şəriət normalarının azərbaycanlıların yemək və içkilərinin, qida rasionun və bütövlükdə qidalanma sisteminin formalaşmasına təsiri məsələləri də olduqca aktualdır. Bu qaydalar və normalar VIII əsrdən etibarən azərbaycanlıların mətbəx mədəniyyətində hakim mövqeyə malik olmaqla, kiçik dəyişikliklərlə günümüzə qədər gəlib çatmışdır.

***"Nəqliyyat vasitələri"*** adlı dördüncü bölmədə isə xalq nəqliyyatı vasitələrindən bəhs olunur. Xatırladaq ki, Şərqlə Qərbi və Şimalla Cənubu birləşdirən qədim karvan və ticarət yollarının üzərində yerləşən Azərbaycan ərazisi hələ qədim dövrlərdən müxtəlif xalqların və dövlətlərin qarşılıqlı əlaqədə, siyasi, iqtisadi və mədəni kontaktda olduğu bir məkan olmuşdur. Əlverişli təbii-coğrafi şərait - geniş düzənliklər, bol sulu çaylar, keçilməz dağ aşırımlarının mövcudluğu zaman-zaman burada müxtəlif nəqliyyat vasitələrinin və yolların inkişafına rəvac vermişdir. Bundan başqa, məhsuldar qüvvələrin inkişafı, xalqın ictimai-iqtisadi və mədənitexniki inkişaf səviyyəsi, iqtisadi ehtiyacları da müxtəlif növ nəqliyyat vasitələrinin yaradılmasında və təkmilləşdirilməsində böyük rola malik olmuşdur.

Erkən orta əsrlər dövrünün əsas nəqliyyat vasitələr sırasında ulaq, at, qatır, dəvə və s. qeyd etmek olar. Xüsusilə bütün orta əsrlər ərzində istər daxili və istərsə də beynəlxalq ticarət əlaqələrində, təsərrüfatın ayrı-ayrı sahələrində nəqliyyat vasitəsi olaraq dəvə çox mühüm rol oynamışdır. Mənbələrə istinad edən tədqiqatçılar albanların balıq, balıq yağı, dəvə yunu və s. ixracat mallarını mübadilə məqsədilə dəvələrə yükləyib Ekbatan şəhərinə qədər apardıqlarını göstərirlər. Abşeronun neft və duzunun, Şirvanın sənətkarlıq məmulatının, digər bölgələrin əkinçilik və heyvandarlıq məhsullarının daşınması da əsasən dəvələrlə həyata keçirilirdi.

Bundan başqa azərbaycanlıların ənənəvi nəqliyyat sistemində quru nəqliyyat vasitələri ilə bərabər, tarixən su nəqliyyatı da mühüm rol oynamışdır. Xəzər dənizi, Kür və Araz kimi bol sulu çayların mövcudluğu bu tip nəqliyyat vasitələrinin yaranıb inkişaf etməsinə güclü təkan vermişdir. Bu sırada kötük, sal və s. kimi arxaik su nəqliyyatı vasitələri ilə yanaşı, müxtəlif formalı qayıqlar da var. İlk orta əsrlərdə Azərbaycan sularında iri gəmilərin üzdüyünü də demək mümkündür.

Dissertasiya işinin II fəsli **"Sənətkarlıq"** adlanır. Beş bölmədən ibarət fəslin birinci bölməsi "***Dulusçuluq"*** adlanır.

Qeyd edək ki, erkən orta əsrlər dövründə, daha dəqiq desək, VII-VIII əsrlərdə dulusçuluğun durğunluq, bəzilərinin isə geriləmə və düşkünlük vəziyyətində olduğu qeyd olunur. Bu dövrdə qabların forması kobudlaşır, onlar əsasən əldə, yaxud da əllə hərəkətə gətirilən dulus çarxında hazırlanır, pis bişirilir, şirələnmir, naxışları azalır, lokanik formalara malik olan qablar aradan çıxır və s. Bu durğunluğun səbəblərini arxeoloqlar Azərbaycan ərazisində gedən intensiv müharibələr, xarici işğallar və cəmiyyətin özündə baş verən ictimai-iqtisadi proseslərlə izah etməyə çalışırlar. Lakin müəyyən müddət davam edən durğunluqdan sonra dulusçuluqda yenidən yüksəliş müşahidə olunmağa başlanmışdır. Dulus kürələri geniş yayılır, məmulatın keyfiyyəti yüksəlir və yeni dulus istehsalı mərkəzləri meydana gəlir. Tədqiq olunan dövrdə bu sənətkarlıq sahəsi daha çox Azərbaycanın Bərdə, Gəncə, Beyləqan, Naxçıvan, Ərdəbil, Təbriz, Marağa, Şamaxı və Bakı kimi feodal şəhərlərində cəmləşir. Şirsiz saxsı məmulatının kəmiyyət və keyfiyyəti yüksəlir, çeşidi xeyli genişlənir.

Fəslin ***"Metalişləmə"*** adlanan ikinci bölməsində ilk orta əsrlərdə Azərbaycanda dəmirçilik, misgərlik, zərgərlik və digər metalişləmə sənətkarlığı sahələrinin vəziyyətindən və inkişafından bəhs olunur. Məlum olduğu kimi, metalişləmə orta əsr şəhərlərinin özünün də formalaşmasında və inkişafında böyük rol oynamışdır. Təsadüfi deyil ki, arxeoloji və geoloji tədqiqatlar sayəsində tarixən Qafqazda mövcud olmuş beş metal emalı mərkəzindən (Qərbi Gürcüstan, Mərkəzi və Şərqi Gürcüstan, Mərkəzi Zaqafqaziya, Qərbi Azərbaycan və Kür-Araz çayları arası) ikisinin məhz Azərbaycan ərazisində yerləşdiyi müəyyənləşdirilmişdir.

Erkən orta əsrlərdən başlayaraq metalişləmədə tunc məmulatının tədricən azalıb aradan çıxması prosesi baş vermişdir. Bu dövrdə onu əmək alətləri və silah istehsalından dəmir, bəzək və zinət istehsalı sahəsindən isə qızıl və gümüş sıxışdırıb çıxarmışdır. Tətbiq sahələri çox geniş olan dəmirdən əsasən silah-sursat və təsərrüfat-məişət alətləri (xəncərlər, qılınclar,

bıçaqlar, oraqlar, kotanlar, baltalar və s.) hazırlayırdılar. Təsadüfi deyil ki, dəmir alətlərə Mingəçevir arxeoloji abidəsinin V-VI əsrlərə aid mədəni təbəqəsindən, Beyləqandan tapılmışdır.

Tədqiqatlar təsdiq edir ki, Albaniyanın müxtəlif şəhərlərində gümüş əridilən sikkəkanalar fəaliyyət göstərirdi, sonra burada Sasani hökmdarlarının adından sikkələr kəsilirdi. Qəbələ şəhərində arxeoloji qazıntılar zamanı qızıldan, gümüşdən, bürüncdən düzəldilmiş çoxçeşidli bəzək əşyaları - sırğalar, üzüklər, qolbaqlar, başlıqlar, boyunbağılar, kəmərlər və s. burada zərgərlik sənətinin yüksək səviyyəsindən xəbər verir. Bu barədə məlumatlar ərəb mənbələrində də əksini tapmışdır.

Fəslin "***Toxuculuq***" adlanan üçüncü bölmə ənənəvi toxuculuğun meydana gəlmə tarixinə və inkişafına, bu sənətin texnoloji əsaslarına və toxuculuq məmulatının insanların məişətindəki roluna həsr olunmuşdur.

Əsrlər boyu insanlar toxuculuqda müxtəlif lifli bitkilərdən (lığ, ziyəliğ, pizə, kətan, kənaf, kəndir, pambıq və s.), yun və ipəkdən geniş istifadə etmişlər. Pambıq bitkisinin becərilməsinə də eramızdan xeyli əvvəl başlansa da, pambıqçılığın təsərrüfat sahəsi kimi inkişafı ilk orta əsrlərə təsadüf edir. Bu fakt yazılı mənbələrlə də təsdiqlənir. Belə ki, həmin mənbələr Albaniyada külli miqdarda pambıq becərildiyini xəbər verir. Eyni fikirlər toxuculuğun ən geniş yayılmış sahələrindən olan yun məmulatı istehsalına da aiddir. Məsələn, Mingəçevirdəki 3 saylı yaşayış yerində ilk orta əsrlər dövrünə aid kiçik sahədə açıq-qəhvəyi rəngdə xalça və ya palaz qalıqları və hana hissələrinin tapılması məhz bu dövrdə Azərbaycan əhalisinin xalçaçılıqla yaxından tanış olduğunu, bu sənət sahəsinin əhalinin məişətində mühüm yer tutduğunu söyləməyə imkan verir. X əsrdən etibarən Naxçıvan, Xoy, Ərdəbil və Muğan özünün xalça məmulatı ilə geniş şöhrət qazanmışdı. Xüsusilə xalça-palaz istehsalı bu şəhərlərdə geniş yayılmış və yun toxuculuğunun əsas istiqamətinə çevrilmişdi. Bundan başqa, Qədim Albaniya ərazisində, xüsusilə də Kür sahilindəki ucsuzbucaqsız tut bağları, çəkilliklər, müxtəlif rəngli ipək parçalar hazırlanmasını təmin edirdi. Bu barədə "Albaniya tarixi"ndə verilən məlumatlar ərəb coğrafiyaşünaslarının Azərbaycanın qədim ipəkçilik mərkəzləri - Qəbələ, Şəki, Dərbənd və b. şəhərlər haqqında verdiyi məlumatlarla da təsdiqlənir.

Erkən orta əsrlərdə Azərbaycan ərazisində ipək saplardan xalça toxuculuğu da geniş yayılmışdı və bu barədə bizə "Kitabi-Dədə Qorqud" dastanı xəbər verir.

Fəslin dördüncü bölməsi ***"Ağacişləmə və daş üzərində oyma sənəti"*** adlanır. Metal erasının və metal əşyaları istehsalının başlanmasından sonra

da ağac məmulatı istehsalı inkişafını davam etdirmiş və ağac üzərində iş (və ya ağacişləmə) ayrıca bir sənət sahəsinə çevrilmişdir. Bu barədə bir sıra mənbələrdə, o cümlədən "Dədə Qorqud" dastanında müəyyən məlumatlar əksini tapmışdır. Məsələn, dastanda xarrat və dülgər əməyinin məhsulu olan "taxt" və ya "altun taxt" adlanan ev elementi tez-tez xatırlanır. Dastanda qeyd olunan "ala seyvan", "göy seyvan", köşk, gərdək, çardaq kimi ev elementlərinin materiallarının da ixtisaslaşmış ağac ustaları tərəfindən hazırlandığı heç bir şübhə doğurmur. Dastanın "Salur Qazanın evi yağmalandığı boyu"nda əksini tapmışdır. Burada Qazan xanın ağacla olan "dialoqu"nda hələ uzaq keçmişdə ağac materialların körpü inşaatında, gəmiqayırmada, müxtəlif məişət əşyalarının hazırlanmasında, silahsazlıqda və s.- də istifadə olunduğunu aydın şəkildə görmək mümkündür.

Erkən orta əsrlərdə, həmçinin ondan sonrakı dövrlərdə əhalinin mətbəx və məişətində də ağac məmulatı mühüm rol oynamışdır. Bunu, arxeoloji materiallarla yanaşı, etnoqrafik müşahidələr də təsdiq edir. Belə ki, etnoqraf M.Atakişiyevanın Mingəçevir və onun ətraf kəndlərində apardığı tədqiqatlar zamanı sakinlər tərəfindən lap qədimlərdən istifadə olunan və söyüd, armud, yemişan, palıd, qarağac, çökə və qovaqdan düzəldilmiş xeyli ağac məmulatını qeydə alınmışdır.

Məlum olduğu kimi, orta əsrlərdə hər bir məmurun, tacirin öz möhürü vardı. Möhür daşları demək olar ki, Azərbaycanın bütün orta əsr şəhərlərindən, yaşayış məskənlərindən, məzarlardan tapılmışdır. Onlar rənglərinə, böyüklüyünə və formasına görə fərqlənir. Bəziləri insan təsviri, digərləri maral, it, öküz, xoruz, qoyun, xərçəng, keçi, şir, pələng, göyərçin və s. fiqurları, başqaları müxtəlif bitki ornamentləri və s. süjetlərlə bəzədilmişdir. Daş möhürlər arasındakı bəzi nümunələri orta əsrlər incəsənətinin şedevri saymaq mümkündür. Müxtəlif daşlar uzun müddət istifadə olunmuşdur, inkişaf etmiş orta əsrlərdə onlar qoruyucu gözmuncuğuna çevrilmişdir.

Erkən orta əsrlərdə şəhərsalma işlərinin genişlənməsi, ticarət və sənətkarlığın inkişafı ilə əlaqədar olaraq, yaşayış evləri, ictimai və dini binaların (saray, divanxana, emalatxana, dükan, karvansara, bazar, hamam, çarhovuz, mədrəsə, məscid, minarə, xanəgah, təkyə, qala, qəsr, bürc, köşk, körpü və s.) inşaatı xeyli peşəkar sənətkar (daş kəsən, daş yonan, bənna, həkkak, nəqqaş, mühəndis, memar) əməyi tələb edirdi. Ənənəvi daşişləmə sənətinin ən qədim növləri arasında daş heykəllərin hazırlanması xüsusi yer tutmuşdur. Azərbaycan ərazisində bu tip abidələrə həm insan (kişi, qadın), həm də heyvan (əsasən qoş və at) heykəli şəklində təsadüf edilir. Bunların arasında zaman etibarilə ən qədimi sayılan insan heykəllərinin bəzi

nümunələri dövrümüzədək gəlib çatmışdır. Lakin III-IV əsrlərdən etibarən zərdüştlük və xristianlıq dinləri Albaniyada səcdə ilə bağlı daş heykəllərin səciyyəvi olduğu büdpərəst dinini sıxışdırmağa başlamışdı və bu prosesin gedişində daş heykəllərin çoxu məhv edilmişdir. İnsan heykəlləri isə relyef təsvirləri ilə əvəz olunmuşdur. Bununla belə, daş heykəllərin bir çoxu qorunub saxlanılmış və yaşamaqda davam etmişdir.

Daşişləmə sənətinin ən zəngin və mükəmməl üsulu sayılan həkkaklıq başlıca olaraq qəbirüstü abidələr (başdaşı, sənduqə) və inşaat hissələri (dekorativ bəzək ünsürləri, kitabə və s.) və s.-də təzahür edirdi. Bəzi həkkaklar isə məmulatın yalnız yazı naxışlarını oymaqla məşğul olurdular.

Fəslin ***"Şüşəçilik"*** adlanan beşinci bölməsi erkən orta əsrlər xalq sənətkarlığında mühüm yer tutmuş şüşə məmulatı istehsalına həsr olunmuşdur. Qeyd edək ki, müxtəlif illərdə ölkəmizin ayrı-ayrı bölgələrində (Şamaxı, Mingəçevir, Beyləqan, Qəbələ, Şabran və s.) aparılmış arxeoloji qazıntı işləri tarixi Azərbaycan ərazilərində şüşə məmulatı istehsalına təqribən e.ə. I minilliyin əvvəllərində başlanıldığını sübut etmişdir. Tədqiqatçılar Azərbaycanda şüşə istehsalı tarixində 3 mərhələni ayırd edirlər: e.ə. I minilliyin başlanğıcından e-ın III-IV əsrlərinə qədər davam edən birinci mərhələ, ilk orta əsrlərdən başlanğıcından XVI-XVII əsrlərə davam edən 2-ci mərhələ və XVI-XVIII əsrlərdən başlanan sonuncu - 3-cü mərhələ.

Şüşə məmulatı arasında müxtəlif rəngli (qara, göy, mavi, yaşıl, bənövşəyi, firuzəyi və sarı) bəzək əşyaları, məişət qabları, tibbi-ətriyyat ləvazimatları və s. daha mühüm yer tutmuş və bu məmulatların hazırlanmasında dartma, burma, qaynaqetmə, cilalama və s. texniki üsullardan geniş istifadə edilmişdir. Zaman keçdikcə isə şəffaf, rəngsiz şüşələrlə yanaşı yaşıl, sarı, mavi çalarlı şüşələr də istehsal olunmuşdur. Şüşə məmulatının bədii tərtibatında cızma, möhürlə basma naxışlar salmaq, müxtəlif rəngli saplardan yapma naxışlar vurmaq üsulları da uğurla tətbiq olunmağa başlanır.

Dissertasiya işinin üçüncü fəsli **"Mənəvi mədəniyyət"** adlanır. Fəslin "**Din"** adlanan birinci bölməsində erkən orta əsrlərdə Azərbaycandakı dini şəraitdən, dinlərarası münasibətlərdən və ayrı-ayrı dinlərin cəmiyyət həyatında malik olduqları mövqedən bəhs olunur.

Məlum olduğu kimi, İslamın bərqərar olmasına qədər, eləcə də xristianlıqdan əvvəl Azərbaycan ərazisində animizm, totemizm, fetişizm və əcdad kultu kimi ibtidai inamlar geniş yayılmışdı. Əksər dünya xalqlarında olduğu kimi, qədim Azərbaycanda da günəş, ay, ulduzlar, uca zirvələr,

müxtəlif heyvan və ağaclar ibtidai inanc və etiqadların əsas obyektləri olmuşdur.

Qeyd edək ki, albanların xristinlığa qədərki inamları arxeoloji qazıntılar zamanı aşkar edilmiş arxeoloji materiallarda da əksini tapmışdır. Belə ki, Yaloylutəpə, Mingəçevir və Xınıslı qazıntılarından əldə edilmiş keramika məmulatı üzərində astral kultun, ağac ayininin və totemizmin izləri aydın görünür. Atəşpərəstliyin maddi əlamətləri isə IV əsrdən etibarən Şirvan zonasında yayılmağa başlayan daş qutu qəbirlərində və bəzi memerlıq abidələrində qorunub saxlanılmışdır. Ümumiyyətlə, Azərbaycanın erkən orta əsrlər dövrü ideoloji sistemin, dini sinkretikliyin, konfessional şəraitin olduqca maraqlı bir mənzərəsi ilə xarakterizə edilirdi ki, bu sistemdə də Zərdüştlük əsas yerlərdən birini tuturdu. Təsadüfi deyil ki, tarixi mənbələrdə atəşpərəstlərin üç ən möhtəşəm od məbədindən birinin (söhbət qədim Şiz şəhərindəki od məbədindən gedir – N.C.) də Azərbaycan ərazisində yerləşməsi haqda da məlumatlar vardır. Demək olar ki, o dövrü qələmə almış bütün ərəb tarixçiləri bu faktı qeyd edirlər.

Eramızın ikinci yüzilliyindən başlayaraq tarixi Azərbaycan ərazilərində xristin icmaları yaranmağa başlayır. Dördüncü yüzilliyin birinci rübündə isə Alban çarı Urnyar xristianlığı ölkənin rəsmi dini elan edir. Lakin bəzi tədqiqatçıların yazdığına görə, Azərbaycan ərazisində xristianlıq Yeliseyin Qafqaza gəlişindən çox əvvəl - bizim eranın ilk əsrlərinin başlanğıcında artıq mövcud idi.

VII-VIII əsrlərdə Cənubi Qafqazın ərəblər tərəfindən işğalı ilə Azərbaycanda islam dini yayılmağa başlanmışdır. Bu işğala qarşı mübarizə 150 ilə qədər davam etmişdir. Onların üç dəfə (639, 643 və 645-ci illərdə) dönə-dönə Azərbaycanı tabe etməyə cəhd etməsi faktı da buna sübutdur. Girdman hökmdarı, alban xristian kilsəsinə məxsus olan Cavanşirin (VII əsr) və Babək xürrəminin (IX əsr) ərəb işğallarına qarşı mübarizəsi, həmçinin Şirvan, Arran və Beyləqan şəhərləri əhalisinin uzunmüddətli müqavimət hərəkatı da bunu təsdiq edir.

Mənbələrdəki məlumatlardan və islam tədqiqatçılarının araşdırmalarından belə bir qənatə gəlmək olur ki, İslam bərqərar olduqdan sonra özündən əvvəlki dinləri və dini etiqadları tamamilə məhv etməyə çalışmamışdır. Belə ki, həmin dövrdə büdpərəstlik və zərdüştlüklə bərabər "əhli-kitab"dan sayılan yəhudilik də mövcudluğunu qoruyub saxlaya bilmişdi.

Ümumiyyətlə, erkən orta əsrlər Azərbaycanındakı konfessional şəraitin tarixi-etnoqrafik təhlilindən belə bir nəticəyə gəlmək olur ki,

sözügedən dövr müxtəlif dinlərin, təriqətlərin və ibtidai inamların qaynayıb-qarışdığı, sıx şəkildə culğlaşdığı bir dövr olmuşdur. Əvvəlcə zərdüştlüyün, daha sonra xristianlığın, VIII əsrdən etibarən isə İslamın hegemon olduğu bu tarixi şəratin digər bir vacib xüsusiyyəti islamın hegemonluğu şəraitində etnik dinlərin özlərinin varlığını qoruyub saxlaya bilməsi, təzyiq və təqiblərə məruz qalmamasıdır. Müasir dünyada "dini tolerantlıq" istilahı ilə ifadə olunan həmin xüsusiyyət ənənəvi varislik prinsipi üzrə günümüzə qədər davam etməkdədir.

Fəslin ***"Xalq təbabəti"*** adlanan ikinci bölməsi xalqın ənənəvi tibbi biliklərinə həsr olunmuşdur. Məlum olduğu kimi, ulu babalarımızın yüzillər, minillər boyu müxtəlif otların, çiçəklərin, mineralların və s.-in müalicəvi xüsusiyyətləri haqqında topladıqları zəngin empirik biliklər və təcrübə sonrakı dövrlərdə elmi təbabətin təşəkkül tapmasında və inkişafında mühüm rol oynamışdır. Bu mənada mütəxəssislər xalq təbabətini bütövlükdə Azərbaycan xalqının tarixinin və onun çoxşaxəli mədəniyyətinin ayrılmaz bir parçası kimi təqdim edirlər.

Uzaq keçmişin xalq təbabəti, istifadə olunan müalicə vasitələri və tibb texnikası barədə bizə ilk növbədə arxeoloji materiallar məlumat verir. Belə materiallar isə ölkəmizin ərazisində tədqiq olunmuş əksər abidələrdə aşkar edilmişdir. Ölkəmizin Gəncəçay hövzəsində, Xankəndində, Naxçıvanda, Muğanda, Mingəçevirdə, Şamaxıda və s. yerlərdə aparılan tədqiqat işləri zamanı müxtəlif dərman məhlullarının saxlanması üçün istifadə edilən gil və şüşə qablara rast gəlinmişdir. Belə qablara, həmçinin istehsalat ocağı və əczaçılığa aid buxarqovucu alətlərə Qəbələ qazıntılarında da rast gəlinmişdir.

Ot və bitkilərin yığıb toplanması işi ilə onların müalicəvi xüsusiyyətlərini bilən xüsusi adamlar - əttarlar məşğul olurdular. Müasir əczaçıların funksiyasını yerinə yetirən bu xalq biliciləri zaman keçdikcə müxtəlif xəstəliklərin müalicəsində istifadə olunan məlhəmlərin, bitki, heyvan və mineral mənşəli həblərin, şirələrin, cövhərlərin hazırlanmasında peşəkarlıq təcrübəsi qazanmışlar.

Məlum olduğu kimi, erkən orta əsrlərdə və sonrakı dövrlərdə Xalq müdrikliyi şöhrətləri başqa ölkələrə yayılmış filosof alimlərin -Hafiz Əziz oğlu, Əbdül Əziz oğlu, Abdulla Abdul Malikoğlu və başqalarının əsərlərində əksini tapmışdır. Hələ X əsrdə Azərbaycanda tibbin vəziyyətini əks etdirən İsa ur Raqi Tiflisi və ya İsa Riqqi Tiflisinin əsəri məşhur tarixi abidədir.Kiçik həcmli, lakin çox qiymətli "Tibb" əsəri onun qələminə məxsusdur.

Çoxəsrlik Azərbaycan xalq təbabətinin daha bir görkəmli nümayəndəsi Kafiyyəddin Ömər İbn Osman. Mənbələrin məlumatına görə, Ömər Osman oğlu Azərbaycanın digər bir görkəmli tarixi şəxsiyyəti - Xaqani Şirvaninin əmisi olmuşdur. Şamaxı şəhərinin yaxınlığındakı Məlhəm yaşayış yerində "Mədrəsəyi-tibbi" adlanan tibb akademiyası yaratmış, burada gənclərə həkimlik sənəti öyrədilmişdir. "Mədrəsəyi-tibbi"də ilk dəfə olaraq stasionar müalicə təşkil edilmişdir.

Fəslin üçüncü bölməsi "***Xalq bayramları"***na həsr olunmuşdur. Məlum olduğu kimi, hər bir xalqın məişət və mədəniyyətində ənənəvi təqvim bayramları və bununla bağlı inam və etiqadlar mühüm yer tutur. Belə ki, təsərrüfat məişətinin, əkinçilik və maldarlığın inkişafı dəqiq vaxtın ölçülməsi zərurəti yaradırdı, bununla əkinçilik və maldarlıq fəaliyyətinin əvvəli və sonunu dəqiq müəyyən etmək mümkün olurdu. Problemi araşdıran tədqiqatçıların əksəriyyətinin ümumi fikrinə görə, qədim əkinçilər günəş, ay və ulduz kimi göy cisimlərinin hərəkətini diqqətlə müşahidə edərək ilk dəfə olaraq əkinçilik təqvimini yaratmışlar. Bununla yeni ilin, əkinçilik işlərinin başlanması və s. vaxtını bilmişlər.

Bu və bununla əlaqədar hadisələr (ilk şum, biçinin başlanması, məhsulun toplanıb başa çatması, dağa köç, dağdan enmə, yeni təqvim ilinin başlanması və s.) də öz növbəsində təntənəli mərasimlərlə müşayiət olunmuş və insanlar tərəfindən bayram kimi qeyd edilmişdir.

Ümumiyyətlə, ulu əcdadlarımızın həyat və məişəti bu cür əlamətdar tarixlərlə çox zəngin olmuşdur. Məsələn, "Zeyn əl -əxbar" adlı qədim mənbədə yalnız zərdüştlərə məxsus 36 bayramın adı çəkilir (zərdüştlər dedikdə, orta əsr müəllifləri əsasən azərbaycanlıları nəzərdə tutur). Həmin bayramların bir qisminin ("Gül-çiçək bayramı", "Qadınlar bayramı", "Bəhməncə bayramı" və s.) adlarına orta əsr müəlliflərindən H.İsfahani, Ə.Biruni, Z.Qəzvini və başqalarının əsərlərində də rast gəlinir. Lakin dörd: Mehrikan, Abrizəkan, Səddə və Novruz bayramlarının mənəvi mədəniyyətimiz tarixində mühüm yer tutmuşdur. Bu bayramların ən möhtəşəmi isə heç şübhəsiz ki, Novruz bayramı olmuşdur. Novruz ayrı-ayrı vaxtlarda "Xızır günü", "Azər bayramı", "Hörmüzd bayramı", "Fərfərdin bayramı", "Bahar çəşn", "Yeni gün bayramı", "Yaz bayramı", "Ərgənəkon bayramı" və s. adlarla adlandırılmışdır. Böyük coşqu ilə qarşılanan Novruzun Azərbaycanda qeyd edilməsi ilə bağlı istər müasir elmi ədəbiyyatda, istərsə də orta əsr mənbələrində çox maraqlı məlumatlar vardır.

Fəslin dördüncü bölməsi ***"Musiqi"*** adlanır. Məlum olduğu kimi, Azərbaycanın musiqi mədəniyyətinin tarixi onun öz tarixi qədər qədimdir.

Bunu ölkəmizin müxtəlif bölgələrində aparılan arxeoloji qazıntılar zamanı ibtidai cəmiyyətin müxtəlif dövrlərinə aid aşkar edilən ibtidai musiqi alətləri də sübut edir.

Şərq aləmində, o cümlədən Azərbaycanda hələ islamaqədərki dövrdə (III-IV əsrlər) peşəkar, o cümlədən məbəd musiqisinin əsası qoyulmağa başlanmışdır. Bu zaman musiqi alətlərinin dəstinə yeniləri – arfanın simli tipləri, primitiv nəfəs alətləri (ney, zurna, kəranay və s.), müxtəlif zərb alətləri və s. əlavə olunmuşdur. Zərdüşt dini mərasimləri, peyğəmbərlərin öyüdləri, dualar musiqi ilə müşayiət olunurdu. “Avesta”nın avazla oxuma tərzinin Azərbaycan musiqi sənətinin özünəməxsus xüsusiyyətlərinin təşəkkülünə əhəmiyyətli təsir göstərməsinə də şübhə yoxdur.

Erkən orta əsrlər dövrünün Azərbaycan musiqi mədəniyyəti haqqında ən mühüm mənbə isə heç şübhəsiz ki, türk dünyasının mükəmməl mədəni abidəsi olan “Kitabi-Dədə Qorqud” dastanıdır. Burada ulu əcdadlarımızın tarixi və yadellilərə qarşı mübarizəsi ilə bərabər, maddi və mənəvi mədəniyyətimizin müxtəlif sahələri, o cümlədən milli musiqimiz haqqında da dolğun məlumatlar əksini tapmışdır. Məsələn, bununla bağlı epizodların birində göstərilir ki, Beyrək 16 il dustaqlıq əzabı çəkdikdən sonra bacıları ilə görüşdə Ozan libasında və qoltuğunda qopuzla gəlir. Dastanın yaradıcısı və yaşadıcısı olan Dədə Qorqud da ozandır, qopuz çalandır. Ozanlar el arasında aqil, müdrik və çox hörmətli adamlar sayılırdı. Ozan sözü, ozan nəsihəti kiçikdən tutmuş böyüyə qədər hər kəs üçün yazılmamış bir ibrət dərsi, müzakirəyə ehtiyacı olmayan bir qanun idi. Qopuz isə bir növ kulta – sitayiş predmetinə çevrilmişdi. Qopuza and içər, qopuzun xatirinə düşməni belə bağışlayardılar.

“Kitabi-Dədə Qorqud” dastanında qopuzdan başqa, nağara, “burması altun və tunc borular”, “gumbur-gumbur davullar”, “guppur-guppur davullar, nəqarələr” və s. kimi musiqi alətlərinin də adları çəkilir. Erkən orta əsrlər dövründə musiqinin mənbələri, daha dəqiq desək, musiqi nəzəriyyəsi haqqında da bir çox qiymətli əsərlər meydana çıxdı. VIII əsrin ən görkəmli musiqişünası, Yaxın və orta Şərq xalqlarının musiqi nəzəriyyəsinin əsasını qoyan Bəsrəli Əbu Əbdürrəhman Xəlil ibn Əhməd Fərahidinin, Ədunəsir Məhəmməd Fərabinin, Hüman Təbrizinin musiqi haqqında düşüncələri sonrakı dövrlərdə S.Urməvi, Xoca Əbdül Qadir, Əbdülqədir Marağayi və digər alimlərin traktatlarının, risalələrinin, musiqi haqqında çox qiymətli nəzəri fikirlərinin meydana çıxması üçün əsas oldu. Bu cür fikirlər Şərq poeziyasının görkəmli nümayəndələri olan Firdovsi, Hafiz, Sədi, Nizami,

Xaqani, Məshəti, Nəsimi, Xətai, Fizuli kimi şairlərin əsərlərində də əksini tapdı.

Bütövlükdə, Islam mədəniyyətinin bütün nailiyyətləri türk və İran xalqlarının adı ilə bağlıdır. VIII-X əsrlərdə ifaçılıq, şerlə musiqinin vəhdəti, musiqidə vəzn qaydaları, xanəndəlik sənəti, çalğı alətləri və s. barədə yüzlərlə traktatlar risalələr yazılmışdır. İslamın möhtəşəm mədəni abidələrindən olan "Kitabəl-Əfqani"də əslən azərbaycanlı olan 3 böyük sənətkar – Musa Şəhavət, İsmayıl bəy Yaşar, Əbdül-Abbas Əl-Əma barədə geniş söhbət açılır.

Fəslin ***"Oyun və əyləncələr"*** adlanan beşinci bölməsində isə ekən orta əsrlərə aid oyun və əyləncələrdən bəhs olunur. Folklor, xalq musiqisi və rəqslər kimi, oyun və əyləncələr də xalqın həyat tərzini, təsərrüfat fəaliyyətini, adət-ənənələrini, milli inkişaf səviyyəsini, arzu və istəklərini, estetik anlamını, bir sözlə mənəvi dünyasını əks etdirir.

Orta əsrlərə aid mənbələrdə, o dövrün yazılı və şifahi ədəbiyyat nümunələrində bir çox oyun və əyləncələrin adlarına rast gəlirik ki, bu da bizə onların dövrü haqqında müəyyən mülahizələr söyləməyə əsas verir. Bu sırada Çövkən oyununun, cıdır və zorxana oyunlarının, həmçinin nərd və şahmat kimi əqli oyunların adlarını qeyd edə bilərik. Məsələn, bəzi müəlliflər, məsələn, K.A.İnostransev, N.İ.Toporov, R.Luvien və b. çövkən oyunun sasanilər (226-652-ci illər) dövründə yarandığını qeyd edirlər. Bəzi müəlliflər isə (A.E.Krımski, F.E.Korş) çövkənin türklər tərəfindən yaradıldığını və türklərdən sasanilərə keçdiyi fikrini irəli sürürlər.

Bizim fikrimizcə isə, tarixi VII-VIII əsrlərə, bəzən də daha qədimlərə aid edilən "Kitabi-Dədə Qorqud" dastanında "Çövkən"in adının çəkilməsi (...Qılıncını nə öyərsən, mərə kafir!? Əyri başlı çövkanımca gəlməz mana!) ikinci variantın daha həqiqətə uyğun olduğunu işarə verir. Bu düşüncə həm də "çövkən" sözünün lüğəti mənasından irəli gəlir. "Çövkən" və yaxud "coğan" sözü Azərbaycanda "ağaccıq" kimi işlədilmişdir. Bundan da əlavə təkzibedilməz faktdır ki, "sasani mədəniyyəti" adlandırılan mədəniyyətin yaradılmasında Azərbaycan xalqının böyük rolu olmuşdur.

Arxeoloji qazıntılar zamanı Örənqaladan tapılmış beş şirli bardağın birinin üzərindəki çövkən oyunçusunun təsviri də bunu təsdiqləyir.

Bundan başqa orta əsr mənbələrində əqli oyunlardan daha çox şahmat və nərdin adına rast gəlmək mümkündür. Şahmatın vətəni Hindistan sayılsa da, Azərbaycanda bu oyunun tarixinin ən azı Zərdüştlük dönəminə aid olduğu heç bir şübhə doğurmur.

Beləliklə, xalq oyun və əyləncələrinin mahiyyəti onların mənəvi dəyərlər sistemində mühüm yer tutduğunu göstərməklə bərabər, xalqın həyat tərzi, ictimai məişəti, arzu və istəkləri, estetik görüşləri, təbiət və cəmiyyətlə bağlı görüşlərinə dair geniş təsəvvür yaradır. Bu da bizə oyun və əyləncələrə sadəcə oyun, əyləncə, yaxud da boş vaxtın keçirilmə vasitəsi kimi deyil, həmçinin xalqın fəlsəfi baxışlarının təzahürü kimi baxmaq imkanı verir.

Dissertasiya işinin **“Nəticə”** hissəsində isə tədqiqatın məzmunundan irəli gələn müddəalara yekun vurulur və məlum nəticələr ümumiləşdirilir. Məlum olur ki, əlverişli coğrafi mövqedə - Şərqlə Qərbin, Avropa ilə Asiyanın birləşdiyi məkanda yerləşən, həmçinin zəngin təbii sərvətlərə malik tarixi Azərbaycan zaman-zaman müxtəlif tayfa birliklərinin, xalqların və millətlərin əlaqə, etnik mədəniyyətlərin qarşılıqlı təsir və qovuşduğu zona kimi mövcud olmuşdur. Bu baxımdan erkən orta əsrlər tarixi də istisnalıq kəsb etmir. İqtisadi inkişafın sürətləndiyi, Azərbaycan dövlətçiliyinin gücləndiyi, mədəniyyətinin çiçəkləndiyi bu dövr həm də Azərbaycan xalqının formalaşma prosesinin başa çatması ilə xarakterizə edilir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş məqalələrində öz əksini tapmışdır:**

1. Бунятова Ш.Т, Вагабова Н.Р. Некоторые вопросы этнографии в творчестве Катрана Тебризи. Научное Обозрение, Выпуск 45, Археология, Этнография, Востоковедение, История, Филология, Педагогика, Махачкала – 2009, с. 17-19.
2. Об особенностях гончарства в Азербайджане в период раннего средневековья. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu Elmi əsərlər Bakı-2011-cı il cild 39, с.124-134
3. К вопросу азербайджанской музыки в раннем средневековье. “Azərbaycan Arxeologiyası və Etnoqrafiyası jurnalı”, Bakı -2013, с. 213-218
4. К вопросу азербайджанской народной медицины в раннем средневековье. Azərbaycanşünaslığın Aktual Poblemləri Ümumilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları I hissə, 5-7 may 2015-ci il, Bakı, Azərbaycan, с.255-257
5. Некоторые сведения о деревообрабатывающем ремесле в раннем средневековье Азербайджане. Azərbaycan Milli Elmlər Akademiyası Xəbərləri, İctimai elmlər seriyası, Bakı -2015, №2, с.179-184
6. Azərbaycanın erkən orta əsrlər dövrünün xalq nəqliyyat vasitələri haqqında. Tarix və onun probemləri, Bakı-2015, s.310-316
7. О производстве и сбыте изделий из стекла в Азербайджане в ранние средние века. Зборник наукових праць «Гілея науковий весник» Кiев-2016, Выпуск 108 (№5), с.94-96

**Н.Р.Джошкунсу**

# МАТЕРИАЛЬНАЯ И ДУХОВНАЯ КУЛЬТУРА АЗЕРБАЙДЖАНА В РАННИЕ СРЕДНИЕ ВЕКА

## РЕЗЮМЕ

Диссертация, представленная на соискание ученой степени доктора философии по истории, посвящена исследованию вопросов материальной и духовной культуры Азербайджана в период ранних средних веков.

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении нашли отражение, актуальность темы исследования, определены хронологические рамки исследования, источниковая база, степень изученности, цель и задачи, научная новизна, практическая значимость исследования, а также апробация и структура диссертационной работы.

В первой главе «Материальная культура», состоящей из четырех подглав, исследованы поселения и традиционные жилища, одежда и украшения, пища и напитки, транспортные средства.

Во второй главе «Ремесло», состоящей из пяти подглав, исследованы гончарство, металлообработка, ткачество, деревообработка и резьба по камню, стеклоделие.

Третья глава «Духовная культура», состоит из пяти подглав и посвящена исследованию религии, народной медицины, народных праздников, музыки, народных игр и развлечений.

В заключении обобщены поставленные цели и задачи, сформулированы основные научные выводы.

**N.R.Joshkunsu**

# MATERIAL AND SPIRITUAL CULTURE OF AZERBAIJAN IN EARLY MEDIEVAL AGES

## SUMMARY

The thesis presented for the degree of PhD in history is devoted to the investigation of the material and spiritual culture of Azerbaijan in the early medieval ages.

Dissertational work consists of the introduction, three chapters, conclusion and the bibliography.

In the introduction, the relevance of the research theme was reflected, the chronological scope of the research, the source base, the degree of study, the purpose and objectives, the scientific novelty, the practical significance of the study, as well as the approbation and structure of the thesis were determined.

In the first chapter “Material Culture”, consisting of four sub-chapters, settlements and traditional dwellings, clothing and ornaments, food and drinks, means of folk transport were investigated.

In the second chapter “Handicraft”, consisting of five sub-chapters, the pottery, metalworking, weaving, woodworking and stone carving, and glassmaking were investigated.

The third chapter “Spiritual Culture” consists of five sub-chapters and is devoted to the study of religion, folk medicine, folk festivities, folk music and games and entertainments.

The conclusion summarizes the goals and tasks set and the main scientific conclusions are formulated.

Sifariş № 27. Tirajı 100 nüsxə

Azərbaycan MEA Geologiya və Geofizika İnstitutu
«Nafta-Press» nəşriyyatının mətbəəsi
Bakı, H.Cavid pr. 119, Tel.: 539-39-72

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

*На правах рукописи*

**НИГЯР РЗА КЫЗЫ ДЖОШКУНСУ**

# МАТЕРИАЛЬНАЯ И ДУХОВНАЯ КУЛЬТУРА АЗЕРБАЙДЖАНА В РАННИЕ СРЕДНИЕ ВЕКА

5102.01 – Этнография и этнология

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2017**